# Göyərçin

№12 2003

ISSN-0207-4710



Rəssam ORXAN

# İşləməyən dişləməz

SERB NAĞILI

Kralın gözəllər gözəli olan bir qızı var idi. Ancaq bu qız olduqca tənbəl idi, heç nəyə əl vurmaz, güzgünün qarşısında saatlarla durub özünə bəzək vurardı.

Bu qızı ərə vermək vaxtı çatmışdı. Kral e'lan eləmişdi ki, kim üç ilə qızımı işləməyə öyrədə bilsə, mənim kürəkənim olacaq.

Günlər bir-birini əvəz edir, heç kəs cəsarət edib bu ağır yükü öz boynuna götürmək istəmirdi.

Kral öz adamlarını göndərdi ki, gedib onun qızına münasib ər tapsınlar. Adamlar axtardılar, axtardılar, nəhayət, tarlada səkkiz öküzü kötana qoşub yer şumlayan bir cavana rast gəldilər. Kralın adamları əmr etdilər ki, bu saat bizimlə möhtərəm hökmdarımızın yanına getməlisən. Oğlan çox qorxdu. Ancaq əlindən nə gəlirdi ki, adamlara qoşulub kralın sarayına getdi.

Oğlana məsələnin nə yerdə olduğunu başa saldılar. O söz verdi ki, üç il müddətinə tənbəl qızı işləməyə öyrədəcək. Cavan oğlan qızı götürüb öz evlərinə apardı. Anası sevincək onları qarşıladı, qıza "xoş gəldin" elədi.

Səhərisi gün öküzləri qabağına qatıb tarlaya işləməyə getdi. Ana isə bütün günü ev işləri ilə məşğul oldu.



Axşam oğlan işdən qayıtdı. Ana şam yeməyini süfrəyə gətirəndə oğlu soruşdu:

- Ana, bu gün kim işləyib?

- Sən və mən, - Ana cavab verdi.

- Kim işləyibsə, o, şam eləyə bilər.

Bu söz kral qızının xoşuna gəlmədi. O acıqlandı və yemək yeməmiş yatmağa getdi.

O biri gün də belə keçdi.

Üçüncü gün gəlin qaynanasına dedi:

- Anacan, olar ki, mən də bir işlə məşğul olum?

- Əlbəttə, olar.

Ana gəlinin odun gətirməyə göndərdi. Axşam düşdü. Yenə şam yeməyi vaxtı oğlan soruşdu:

- Ana, bu gün kim işləyib?

- Üçümüz də: mən, sən, koroleva.

- Kim işləyibsə, o yeyə bilər.

Onlar birlikdə şirin-şirin şam yeməyi yedilər. Günlər bir-birini əvəz etdikcə kral qızı əməlli-başlı işləməyi öyrəndi.

Üç ildən sonra kral öz qızını görməyə getdi və gözlərinə inanmadı. Gördü ki, qızı qaynanası ilə əl-ələ verib işləyir. O, çox şad oldu və soruşdu:

- Qızım, necə oldu ki, sən işləməyi öyrəndin?

- Ata, bizdə qayda belədir: kim işləmirsə, o yeyə bilməz. Əgər bizimlə şam yeməyi yemək istəyirsənsə gərək sən də bir iş görəsən. Kral çox şad oldu. Gətirdiyi qiymətli hədiyyələri təzə qohumlarına bağışladı və onları saraya də'vət etdi. Kürəkənini oğulluğa götürdü və söz verdi ki, qocalanda bütün krallığı ona bağışlayacaq.

Tərcümə edib işləyəni
*R. ƏLİYEV*

*Yelena BLAQİNİNA* (Rusiya)

## ALMA AĞACI

Bağda alma ağacı
Açıb nə qədər çiçək.
Elə gözəldi, ondan
Hünərin varsa, göz çək.

Günəş onu qızdırır,
Əsir, əsir küləklər.
Quruyub yerə düşür
İncə-incə ləçəklər.

Necə yoxsul görünür
Ləçəyi düşən budaq,
Çiçəklərin yerində
Meyvələr qalıb ancaq.

Yaxşı qulluq eləsək,
Ağac baxacaq sözə.
İri, ətirli alma
Bağışlayacaq bizə...

## BU ÇILPAQ-BU ŞILTAQ

Bu şıltaqçın-çılpaqçın
Xeyli zəhmət çəkmişəm.
Bu çılpağa-şıltağa
Təzə paltar tikmişəm.

Bax, bu qırmızı köynək,
Bu da göy rəngli şalvar.
Görürsən, hər tərəfdən
Onun cibləri də var.

Sarı kürk də tikmişəm,
Naxışlarından olmaz.
Mənim bu çılpaq kuklam
Dönüb olub modabaz.

## QOYUN MƏN DƏ BİR İŞ GÖRÜM

Qoyun mən də bir iş görüm,
Çətin deyil su daşımaq.
Səpsərin quyu suyuna
Gəlib hamı olsun qonaq.
Mən bu suyu, -
İçin,
İçin, -
Gətirmişəm sizin üçün.
Ya da tökün susəpənə,
Suvarın bostanı, bağı,
Su içməyi bizim kimi
Bitkilər də, sevir axı?!

## NƏ ÜÇÜN, NƏYƏ GÖRƏ

Nəyə görə İrkanın
Corabında deşik var?
Nə üçün,
Nəyə görə,
Deyin görək, uşaqlar?

Tikmək həvəsi yoxdu
Bizim İrkanın indi.

Nəyə görə Nadkanın
Corabında yamaq var?
Nəyə görə,
Nə üçün,
Deyin görək, uşaqlar?

Çünki Nadka istəmir
Ona desinlər pinti.




## SƏSSİZ OTURAQ

Anam yorulub, yatıb,
Mənim də səsim batıb.
Heç nəyə əl vurmuram,
Ayağa da durmuram.
Oyuncaqlar da susub,
Sükut çöküb otağa.
Anamın yastığında
Titrəyir qızıl şüa.
Deyirəm ki, ay şüa,
Dinc durmaq olmur daha!
Mən çox şey istəyirəm:
Top qovmaq, qəh-qəh çəkmək.
Bərkdən kitab oxumaq,
Oynamaq, şəkil çəkmək.
Ancaq susuram.
- Niyə?
- Anam yatıbdır deyə.
Şüa gəldi yaxına,
Üzbəüz dayandıq biz.
Mənimlə razılaşdı:
- Yaxşı, oturaq səssiz...

## QIZIL GÜNƏŞ

Qızıl günəş, qızıl günəş,
Nədir səndə bu od, atəş?

Dünyamıza işıq gətir,
Aydın səmada hey nur saç.
Yaşıl don geysin bağ, bostan,
Cana gəlsin hər gül, ağac.

Qızıl günəş, qızıl günəş,
Nədir səndə bu od, atəş?

Səmada üz, şəfəq çilə,
Cana gəlsin ana torpaq.
İsit bizim dünyamızı,
Qoy sevinsin böyük, uşaq.

Rəssam *Vəfa İBRAHİMGIZI*

## ŞİNEL

Atamdan soruşdum ki,
Sökülüb üzü, içi -
Bu köpköhnə
Şineli
Qoruyursan
nə üçün?
Tamam çirk içindədi,
Niyə bunu saxlayaq?!
Sinəsində deşik var,
İnanmırsan,
özün bax.
Atam dedi: - Əzizdir
Şinel mənə çox şeydən.
Onu nə cıra, nə də
Yandıra bilərəm mən.
Bu şineli geyinib
Biz cəbhəyə getmişik.
Yurdumuza göz tikən
Düşməni məhv etmişik.

## DÜNYAYA SÜLH

Oktyabrda
Sevimli nənəm
Al parça, sarı
Sap verdi mənə.
Parçadan kəsdim
Kiçik bir bayraq,
Sən üstündəki
Yazıya bir bax:
"Dünyaya sülh!"

Hərfləri tikdim
Sarı sap ilə,
Bayraq əlimdə
Mən çıxdım çölə.
Gəlin, a dostlar,
Siz axın-axın.
Bayrağımdakı
Yazıya baxın:
"Dünyaya sülh!"

Tərcümə edəni:
*Rafiq YUSİFOĞLU*